# Vətən müharibəsində söz də qələbəyə səfərbər olunub

**27 sentyabrdan başlayan Vətən müharibəsi bir aydan artıqdır ki, davam edir. İlk gündən ön xəttdəki müzəffər ordumuz kimi, arxadakı hər bir soydaşımız da özünü səngərdə hesab edir. Döyüş meydanlarında tanklar, toplar susmadığı kimi, informasiya-söz cəbhəsində – teleradio və mətbuatda, eləcə də ədəbiyyat və publisistikada da Qələbəyə çağırış sədaları, zəfərlərdən doğan sevinc dalğaları səngimir. Ötən günlərdə güllə, mərmi ilə yanaşı, həqiqətlərimizi bəyan edən söz də, nəğmə də döyüşür. Müsahiblərimiz olan alimlər, şairlər jurnalistlər Qələbə sevinclərimizi ürəkdolusu ifadə etdilər.**




***Nizami CƏFƏROV, akademik:***

– İllər keçəndən sonra bugünlərin mətbuatını, ədəbiyyatını oxuyanlar görəcəklər ki, yazarlarımız Ali Baş Komandanın hərbi əmrlərini onlara verilən yaradıcılıq sifarişi kimi qəbul ediblər. Bu, artıq ümummilli bütövlüyümüzdən xəbər verir. Bu bütövlüyün yaranmasında ədəbiyyat zaman-zaman mühüm rol oynayıb. Ədəbiyyatımız Ermənistanın namərd işğalı kimi, 30 ildir davam edən milli bəlamıza son qoyulduğu günlərdə konkret göstəricilərlə bu birliyi əks etdirir.

Buvaxtadək vətənpərvərlik mövzusunda yazılmış ən təsirli şeir, poema və nəğmələr gecə-gündüz teleradio dalğalarına hakimdir. Ordumuzun apardığı azadlıq müharibəsi, arxa cəbhənin dəyanəti, xüsusən, Gəncə hadisələri haqqında xeyli əsər yazıldı. Yusif Nəğməkarın çox gözəl poeması meydana çıxdı. Bu əsər bizim televiziyalarımızda da səsləndi. Nəriman Həsənzadənin, Fikrət Qocanın çox gözəl şeirləri xalqa qələbə ruhu, döyüş əzmi gətirdi.

Xalqın nüfuz sahibi, söz demək səlahiyyəti olan hər bir ziyalısı mediada söz əsgəri kimi döyüşür. Bunlar hazırkı Vətən Müharibəsinin ümumi təəssüratı altında yaradılır və günümüzün qəhrəmanlıq salnaməsini tarixə həkk edir. Burada həm müharibə– əsgərlərimizlə qürur duymaq, onları hücuma səsləmək, Vətən torpaqlarını geri almaq əzmi var, həm də ermənilərin dinc əhaliyə namərd hücumlarına mənəvi reaksiyalar mövcuddur.

Bizim ədəbiyyatımızda və publisistikamızda artıq parlaq şəkildə seçilən Ali Baş Komandan obrazı var. Mənə belə gəlir ki, bu, bütün ədəbi axtarışların zirvəsidir. Çünki xalq öz qəhrəmanını tanımalıdır, təqdim etməlidir və onun ətrafında birəşməlidir. Tarixboyu belə olub. Bu gün Azərbaycan Prezidenti – Ali Baş Komandan Azərbaycan xalqının, onun gələcəyinin, inkişafının, sadəcə qarantı rolunda çıxış etmir, həm də onu həyata keçirir. Buna görə də ədəbiyyat üçün – xalqı ifadə edən ədəbiyyat üçün, demokratik ədəbiyyat üçün, ümummilli ədəbiyyat üçün bu obrazın kəşfi, işlənməsi, mükəmməl şəkildə təqdimi olduqca vacibdir. Bu, ədəbiyyatımızın müharibə dövründəki ən böyük nailiyyətlərindən biri, bəlkə də birincisidir.

***Ramiz RÖVŞƏN, Xalq şairi:***

– İşğaldan azad olunan bütün torpaqlar bizim üçün əzizdir. Qubadlının da azad olunması təkcə qubadlıların bayramı deyil. Amma elə bilirəm ki, o torpaqlarda əzizlərinin məzarı olan insanlar üçün o yerlərin azad olunması başqa bir sevincdir. Bu, həm də bir təskinlikdir ki, o yerləri görəcəklər. Bu gün təkcə o torpaqlarda uyuyan ata-babaların ruhları sevinmir, həm də o torpaqlar uğrunda canını fəda edən şəhidlərimizin, o cümlədən Əliyar Əliyevin, Qubadlı uğrunda döyüşlərdə şəhid olan Milli Qəhrəman Şükür Həmidovun da ruhu sevinir.

Avqustun 31-i Qubadlının işğal olunmasının 27-ci ildönümündə İctimai Televiziyada danışdım və dedim ki, inanıram Qubadlıya dönəcəyik. Amma belə tez olacağını gözləmirdim. Bu gün Azərbaycan Ordusunun sürəti bizim arzularımızın sürətindən daha itidir. Bu, bir xalq, millət kimi bizim böyük xoşbəxtliyimizdir. Ordumuz hər gün irəllilədikcə, Qubadlının azad ediləcəyi xəbərini səbrsizliklə gözləyirdim.

Çox insan o torpaqların həsrəti ilə dünyadan köç etdi. Nə yaxşı ki, bizim nəsildən o torpaqları həsrətlə gözləyən yaşlı insanlardan həyatda qalanları var və o yerləri yenidən görəcəklər. Onlardan biri də mənəm. Mən Bakıda doğulmağıma baxmayaraq, hər il yay tətilində Qubadlıya gedirdim. Qubadlı deyəndə, ilk ağlıma gələn Bərgüşad çayı və Sərt dağıdır. O dağın başından baxanda Şuşa görünür. Mən əminəm ki, biz tezliklə yenidən o dağın başından Şuşaya, Şuşadan da Sərt dağına baxacağıq. Mən də nəvələrimi yaydan-yaya yox, ilin bütün fəsillərində Qubadlıya aparacağam.

***Kərim ŞÜKÜROV, professor:***

– Qarabağ cəbhəsində Sentyabrın 27-dən hərbi əməliyyatların başlaması ilə müxtəlif istiqamətlərdə Azərbaycan Ordusu hərb tariximizə parlaq səhifələr yazan zəfər döyüşləri aparır. Cənub istiqamətində əməliyyatlar daha intensiv şəkildə həyata keçirildi. Xudafərində Azərbaycan Respublikasının dövlət bayrağının sancılması bu əməliyyatlar silsiləsində çox önəmli bir hadisə oldu. Bundan sonra Arazboyu irəliləyən ordumuz Zəngilanı da azad edərək İranla 27 ildən bəri, təxminən, 140 kilometri Ermənistanın nəzarətinə keçmiş dövlət sərhədlərimizi tam bərpa etdi. Digər istiqamətdə – Qubadlı və Laçın səmtdə qoşunlarımızın irəliləməsinə də meydan açıldı.

Xudafərin körpüsü, sadəcə, siyasi-iqtisadi və hərbi nöqteyi nəzərdən deyil, həm də simvolik məna daşıyır. Bu körpü Azərbaycan tarixində milli varlığımızı nişan verən, birlik, bütövlük anlamı yaradan başlıca rəmzlərdən biridir. Xudafərin körpüsünün bir tərəfi Cəbrayıl rayonu ərazisidir. Cənubi Azərbaycana aid olan ərazi isə Xudafərin yaşayış məskənidir. Hər iki yaşayış məskəni Azərbaycan tarixində çox böyük rol oynayıb. Cəbrayıl Xudafərin körpüsü üzərindən düşmənçilik məqsədi ilə gələn hərbi qüvvələri ilk qarşılayan ərazi idi. Bu baxımdan Cəbrayıl tariximizdə önəmli yer tutur.

Bu gün 15 aşırımlı körpü həm də Azərbaycan Respublikası ilə İran İslam Respublikasının dövlət sərhədində yerləşən nadir tarixi memarlıq abidəsidir. Əminliklə deyə bilərəm ki, sərhədlərimizin azad edilməsi İran–Azərbaycan münasibətlərinə də çox ciddi təkan verəcək. Həmin ərazilərdə ölkəmizin suveren hüquqlarını bərpa etməsi Azərbaycan və İran arasında ikitərəfli münasibətlərə də çox ciddi təsir edəcək.

"Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikilməsinin tarixi əvvələ gedib çıxır, hətta bu proses sovet hökumətinin 60-cı illərində başlamışdı. İranla Azərbaycan Respublikası arasında danışıqlar prosesində bu məsələ yenidən ortaya çıxdı. Bu baxımdan Cəbrayıl bölgəsinin azad edilməsi Azərbaycanın bu sahədəki siyasi xəttinin uzaqgörənliyini ifadə edir. O ərazi əvvəllər işğal altında olduğu üçün tikinti prosesi müəyyən fasilələrlə İran tərəfindən davam etdirilirdi.

Həmin müqavilənin Milli Məclisdə ratifikasiya edilməsi ilə çox ciddi və strateji bir layihənin də reallaşmasını qeyd edə bilərik. Su qovşaqları və elektrik stansiyalarından əldə edilən enerji bu gün Azərbaycanın işğaldan azad edilən bölgələrinin həm su, həm də enerji ilə təchizatında çox böyük rol oynayacaq.



*Nizami Cəfərov, akademik*



*Ramiz Rövşən, Xalq şairi*



*Kərim Şükürov, professor*



*Qulu Məhərrəmli, professor*



*Seymur Verdizadə, jurnalist*

***Qulu MƏHƏRRƏMLİ, professor:***

– Zəngilanda doğulmuşam, 10 il orta məktəbi Şuşada oxumuşam, Bakıda evlənmişəm. Bir çox tərəflər mənim həyatımda birləşib. Azərbaycanlı üçün torpağın hər qarışı doğmadır. Füzuli, Cəbrayıl, Xocavəndin kəndləri alınanda necə sevinirdimsə, Zəngilana da elə reaksiya verdim. Sabah Laçın, Şuşa azad olunanda da eyni hissləri yaşayacağam.

Birlikdə yaranmış ruh yüksəkliyini, mənəvi gücü ifadə etmək çox böyük hadisədir. Biz bunun üçün müzəffər ordumuza, Ali Baş Komandanımıza, Azərbaycan xalqının yenilməz gücünə minnətdarıq. Bu qələbədə payı olan hər kəsə təşəkkür edirik.

Artıq tariximizin yeni mərhələsi başlayır və bu mərhələdə, əlbəttə ki, biz bir millət olaraq yenilməzliyimizi, sarsılmazlığımızı ortaya qoyuruq. Əlbəttə, bütün Azərbaycan xalqı kimi, mən də çox sevinirəm. Bu gün mənə elə gəlir ki, bizim hamımız cəbrayıllıyıq, zəngilanlıyıq, füzulilik, şuşalıyıq. Zəngilanın işğaldan azad edilməsi xəbərini Prezidentin dilindən eşitmək, onun rəsmi təsdiqini görmək başqa bir hissdir.

Dünyada ən gözəl hisslərdən biri qələbə hissidir və bunun üçün Ulu Yaradana, Allahımıza minnətdarıq. Doğrudur, əzizlərinin uyduğu məkanın artıq sənin əlində olması ayrı bir hissdir. Sözlə ifadə edilməyəcək dərəcədə zəngin bir duyğudur. Uşaqlığım, qaçdığım o cıdırlar yenə gözlərimin önündə canlandı. Bizə bu duyğunu yaşadan ordumuza, generalımıza, Ali Baş Komandanımıza minnətdarıq. Və bütün xalqıma təşəkkür edirəm ki, bir yumruq kimi ordunun arxasında dayanır.

Hüseyin Cavidin belə bir sözü var :"Bugünkü müharibədə toplar, tüfənglər deyil, hər məmləkətin ədəbiyyat və fəlsəfəsi ilə bəslənən beyinlər də ayrıca haizi-əhəmiyyətdir". Nə yaxşı ki, biz bu imtahandan da üzüağ çıxırıq.

***Seymur VERDİZADƏ, Cəbrayıldan məcburi köçkün, jurnalist:***

– Ötən günlərdə Azərbaycan Ordusunun 27 il əvvəl uşaq ikən tərk etməli olduğum Cəbrayıl rayonunu da işğaldan azad etməsi bir söz əsgəri kimi, mənə də həyatımın ən böyük sevincini yaşatdı, simləmiş nisgilimə bir təsəlli gətirdi. Bu zəfər 1 milyonluq qaçqın-köçkünlər ordusunun öz yurduna qayıtmaq inamına gur bir işıq yandırdı.

Hər gün şəhər və rayonlarımız, qəsəbə və kəndlərimiz qrup-qrup düşməndən azad olunur və bu savaşda Ermənistanın məğlub olacağına ağlı başında olan heç kim şübhə etmir. Artıq havadarları da İrəvanı başlı-başına buraxıblar. Ermənilərin başına hansı müsibətlərin gələcəyini tezliklə hamımız görəcəyik. Hakimiyyətə küçədən gələn və hələ də özünü küçə uşağı kimi aparan Nikol Paşinyan erməni xalqının qəsdinə durub. Anlaşılan odur ki, bu adam ermənilərin kökünü kəsməsə, rahatlıq tapmayacaq. Müzəffər Azərbaycan Ordusu aclıq və səfalətin girdabında çapalayan erməni əsgərini qarışqa kimi əzib keçir. Dərələr təcavüzkar ordunun ölmüş əsgərlərinin cəsədləri ilə doludur. Ermənilər özgə torpağına göz dikməyin bədəlini canları ilə ödəyirlər.

Paşinyanın bütün cəhdləri uğursuzluğa düçar olub. Onun perspektivinin olmadığını artıq öz ailə üzvləri də anlayırlar. Nikolun özü kimi kəmsavad qızı belə müharibəni uduzduqlarını etiraf edərək, bütün xəyallarının puç olduğunu dilə gətirib. Bir müddət sonra bu barədə nəsə danışmağa lüzum qalmayacaq. Çünki tezliklə Paşinyan təkcə öz ailəsinin deyil, həm də bədbəxt erməni xalqının arzularını puç etmiş olacaq.

Lakin başabəla Paşinyan müharibə ritorikasından əl çəkmir. Dünənə kimi böyük dövlətlərin başçılarının baş-beynini ağrıdan Nikol yenidən öz xalqını silaha sarılmağa səsləyib. O, son günlərdə deyib ki, əslən Qarabağdan olan iş adamları və tələbələr könüllü ordu sıralarına yazılmalıdır. İş adamlarıyla işimiz yoxdur. Onların "işinə" cəbhədə əsgərlərimiz baxacaq. Bəs məğlub baş nazir tələbələri niyə Azərbaycan adlı Əjdahanın ağzına atır?

Paşinyanın siyasi karyerası çoxdan başa çatıb. O, Ermənistan üçün artıq tarixə çevrilib. Bədbəxt erməni xalqı bu tarixi həmişə lənətlə xatırlayacaq. Paşinyanın fiziki mövcudluğunu davam etdirib-etdirməyəcəyi isə sual altındadır. Əminəm ki, ermənilər bu məğlubiyyəti ona bağışlamayacaqlar. Biz Şuşaya bayraq asanda, ermənilər Paşinyanı boğazından asmalıdırlar.

***Hazırladı:***
***Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***